**Tibb Elml ri Namiz di Faiq Musayev**



Musayev Faiq Əbdürrəhman oğlu 6 aprel 1939-cu ildə Gəncə şəhərində anadan olub. Orta təhsilini Gəncənin 24 saylı məktəbində bitirib , 1957-ci ildə Azərbaycan Tibb Universitetinin (ATU) " Stomatologiya " fakkultəsinə qəbul olunub . 1963-cü ildə həkim – stomatoloq kimi Gəncəyə təyinatla göndərilib. Mart , 1964-cü ildə şəhərin stomet poliklinikasında əvvəlcə həkim – stomatoloq , sonra isə , ortopedik şöbənin müdiri işləyib. 1966-cı ildə elmi tədqiqat işləri ilə əlaqədar terapevtik şöbəyə keçərək , dissertasiya mövzusu üzərində çalışıb. Elmi rəhbərləri Leninqrad Tibb Hərbi Akademiyasının müəllimləri prof. A. F. Tumka və D. E. Tanfiliyev olublar. 1971-ci ildə" tibb elmləri namizədi " adına layiq görülüb. 1979-cu ildə Azərbaycan Tibb Universitetinin terapevtik stomatologiya fakkultəsində assistent vəzifəsinə seçilib . 1984-85-ci illərdə kafedra müdiri vəzifəsini icra edib. 1986-cı ildən dossent vəzifəsində işləyir.
40-dan çox elmi əsərləri müxtəlif ölkələrdə çap edilib , onlardan 16 – sı xarici ölkələrdə, 2013-cü ildə "Ağzın selikli qişa xəstəlikləri" Müəllim Nəşriyyatı tərəfindən ATU-nun stomatologiya fakkultəsi tələbələri və residentləri üçün nəşr edib. 1986-2009-cu illərdə kafedranın tədris hissə müdiri , 1996 – 2012-ci illərdə ATU-nun nəzdində dissertasiya şurasının üzvü və elmi katibi vəzifələrində çalışıb.

